# Urmiya gölü ekoloji terror hədəfində



**İranın Azərbaycan vilayətində Urmiya gölünün quruması artıq uzun zamandır müzakirə mövzusudur. Bu, Güney Azərbaycan sevdalısı olan hər kəsi narahat edir. Təəssüf ki, gölün qurumasının qarşısını almaq üçün İran hökuməti və beynəlxalq ekoloji təşkilatlar ciddi addımlar atmırlar.**

Dünən bir qrup ziyalı – xaricdə yaşayan güneyli soydaşlarımız Bakıda toplaşaraq "Urmiya gölünün qurudulması" ilə bağlı ictimai müzakirə təşkil ediblər. "Beynəlxalq hüquq sahəsində maarifləndirmə və tədqiqatlar" İctimai Birliyinin sədri, Bakı Dövlət Universitetinin müəllimi Səftər Rəhimli Urmiya gölünün ekoloji fəlakət yaşadığını və bu təhlükənin qarşısı tezliklə alınmasa, gölün tamamilə quruyub yox olacağını bildirib.

"Güney Azərbaycan Demokratik Türk Birliyi" (GADTB) təşkilatının sədri Əjdər Tağızadə çıxışında qeyd edib ki, Urmiyanın bilərəkdən qurudulması həyata keçirilir. Gölə axan bir sıra çayların qarşısı kəsilir.

Güneyli soydaşımız ekspert Babək Azəroğlu 100 ildən bəridir ki, İran rejiminin öz daxili siyasətini anti-Azərbaycan mövqeyindən qurduğunu faktlarla bildirib. "Urmiya gölünün qurudulması da birbaşa bu siyasətə xidmət edir. Məqsəd insanları kompakt yaşayış yerlərindən didərgin salmaq və onların başını digər problemlərlə qatmaqdır". Digər cənublu ekspert Səttar Sevgin İranda hər zaman etnik diskriminasiya aparmaq, Azərbaycan türklərini farslaşdırmaq, əritmək, yox etmək istiqamətində siyasət həyata keçirildiyini vurğulayıb. O bildirib ki, Azərbaycan Respublikası xalqımızın milli varlığını qorumasaydı, cənubda öz doğma dilimiz tamamilə unudulardı.

Tanınmış türkoloq, filologiya elmləri doktoru, professor Firudin Cəlilov isə söyləyib ki, Urmiya gölünün qurudulmasının iki səbəbi var: "Bunlardan birincisi təbiətlə, digəri insanların müdaxiləsi ilə bağlıdır. Aral gölü də bu cür qurudulmuşdu. Gölə axan çayların axarı dəyişdirilmişdi, bununla da göl qurumuşdu, ekoloji vəziyyət pisləşmişdi. Eyni vəziyyət Urmiya gölü ilə də bağlıdır".

Digər çıxışçılar da İran rejiminin azərbaycanlı əhalinin sıx yaşadığı ərazilərdə törətdiyi ekoloji terrordan və ayrı-seçkilik siyasətindən danışıblar.

**Anar TURAN,**
**"Xalq qəzeti"**

Xalq qəzeti .- 2022.- 1 dekabr.- S.5.